**AZƏRBAYCAN RESPUBLİKASI**
**DAXİLİ İŞLƏR NAZİRLİYİ**
**POLİS AKADEMİYASI**

**Elmi Şuranın 27 dekabr 2025-ci il tarixli iclasının qərarı (protokol №2)**

# TƏDRİS-METODİKİ ŞURA HAQQINDA
# Ə S A S N A M Ə

**Bakı – 2025**

# Daxili İşlər Nazirliyinin Polis Akademiyası
# Tədris-metodiki şura haqqında
# Ə s a s n a m ə

## 1. Ümumi müddəalar

1.1. DİN-in Polis Akademiyasının Tədris-metodiki şurası (bundan sonra TMŞ) təlim-tədris prosesinin keyfiyyətini və onun elmi-metodiki təminatını yüksəltməyə xidmət edən istiqamətverici-məsləhət orqanıdır.

1.2. TMŞ akademiya rəisinin əmri ilə yaradılır. Onun tərkibinə rəis müavinləri, şöbə, fakültə, kafedra və bölmə rəisləri, eləcə də elmi-metodiki iş təcrübəsinə malik olan yüksək ixtisaslı müəllim və mütəxəssislər daxildir. TMŞ-nin işinin təşkili və aparılmasına rəhbərlik akademiya rəisinin birinci müavini tərəfindən həyata keçirilir.

1.3. TMŞ öz fəaliyyəti Azərbaycan Respublikasının Təhsil haqqında Qanununa, Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının Nizamnaməsinə, Daxili İşlər və Elm və Təhsil Nazirliklərinin əmrlərinə və kollegiya qərarlarına, akademiyanın Elmi Şurasının və rəisinin qərar və əmrlərinə, həmçinin bu Əsasnaməyə uyğun müəyyənləşdirilir.

## 2. Tədris-metodiki şuranın işinin əsas istiqamətləri

2.1. DİN-in Polis Akademiyasının tədris prosesində iştirak edən struktur bölmələrinin fəaliyyətinin əlaqələndirilməsi;

2.2. Ali təhsilli mütəxəssis hazırlığının təhsil proqramı və tədris planlarının təhlili;

2.3. Təhsil resurslarının müzakirəsi;

2.4. Tədris prosesinin keyfiyyətli təşkili məqsədilə zəruri materialların toplanması, onların daha da təkmilləşdirilməsi üçün tövsiyələrin hazırlanması və tətbiqi;

2.5. Tədris olunan bütün fənlər üzrə təhsilalanların keyfiyyətli bilik əldə etmələrinə nəzarətin forma və üsullarının təkmilləşdirilməsi.

## 3. Tədris-metodiki şuranın vəzifələri

3.1. DİN-in Polis Akademiyasında aparılan elmi-metodiki işlərin əsas istiqamətlərini müəyyənləşdirən, təşkilati və tədris-metodiki məsələlər üzrə elmi cəhətdən əsaslandırılmış tövsiyələrin işlənib hazırlanması;

3.2. İxtisaslara uyğun tədris-metodiki sənədlərin hazırlanması üçün təkliflərin verilməsi (təhsil proqramı, tədris planları və s.);

3.3. Elmi cəhətdən əsaslandırılmış təhsil texnologiyalarının və tədris-metodiki materialların işlənilməsinin təşkil edilməsi;

3.4. Təhsilalanların müvəffəqiyyət dinamikasının analizi, məşğələlərin məzmununa, tədris olunan mövzuların elmi səviyyəsinə, təhsilalanların biliklərinin qiymətləndirilməsinə və attestasiyasına nəzarət edilməsi;

3.5. Şöbə, fakültə, kafedraların və ayrı-ayrı strukturların tədris prosesinin təkmilləşdirilməsinə aid təkliflərinin təhlili və tətbiq edilməsi;

3.6. Akademiyanın şöbə, fakültə, kafedralarında tətbiq edilməsi üçün yerli və beynəlxalq təcrübənin öyrənilməsi;

3.7. Sorğular keçirməklə məzunların praktik fəaliyyətini təhlil edib, tədris-təlim prosesinin təkmilləşdirilməsi;

3.8. Təhsilalanların ixtisas təcrübəsinin təşkili və həyata keçirilməsini təhlil edib bu prosesin təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması;

3.9. Təhsilalanların təhsil resursları ilə təminatı məsələsinin araşdırılması;

3.10. Şöbə, fakültə və kafedraların tədris-metodiki komissiyalarının işinin əlaqələndirilməsi;

3.11. Elmi-metodiki materialların hazırlanması, nəşr edilməsi və həyata keçirilməsinin təşkili;

3.12. Elmi-metodiki problemlərin, akademiyanın Elmi Şurasında, eləcə də Daxili İşlər Nazirliyinin Kollegiyasında müzakirə edilməsi üçün məlumatların hazırlanması.

## 4. Tədris-metodiki şuranın işini təşkili

4.1. TMŞ öz fəaliyyətini tədris ili ərzində həyata keçirir, hər rübün sonunda görülmüş işlər iclasda müzakirə edilir;

4.2. TMŞ öz qərarlarını kollegial sürətdə açıq səsvermə yolu ilə səs çoxluğu prinsipi əsasında qəbul edir;

4.3. TMŞ-nın iclasları protokollaşdırılır. Protokol sədr və katibin imzaları ilə təsdiq edilir;

4.4. TMŞ-nın üzvlərinin təşkilati və tədris metodiki fəaliyyətinə dair qəbul edilmiş qərarlar aidiyyəti struktur bölmələrin planlarına daxil edilir;

4.5. TMŞ-nın işinin təşkili və aparılmasına, eləcə də qəbul edilmiş qərarların icrasına akademiyanın Elmi Şurası nəzarət edir.

## 5. Yekun müddəalar

5.1. TMŞ-nin Əsasnaməsi akademiyanın Elmi Şurası tərəfindən təsdiq edilir.

5.2. Əsasnaməyə əlavə və dəyişikliklər yalnız akademiya rəhbərliyi və ya Elmi Şuranın təşəbbüsü ilə həyata keçirilir.

5.3. Bu Əsasnamə təsdiq edildiyi tarixdən qüvvəyə minir.